# COP29-da "Africa Grows Green" mükafatları təqdim olunub

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində Bakıda "Africa Grows Green" (Afrika Yaşıl Olur) təşəbbüsü üzrə mükafatların təqdimetmə mərasimi keçirilib. Misirin "İstidamə" Davamlı Yaşayış Keyfiyyəti Assosiasiyası tərəfindən təşkil olunan tədbirdə bu ölkənin ətraf mühit naziri Yasmin Fuad, Pakistanın Baş nazirinin iqlim dəyişikliyi və ekoloji koordinasiya üzrə nümayəndəsi Romina Xurşid Alam, Assosiasiyanın İdarə Heyətinin sədri Rim Əbdülməcid, beynəlxalq qurumların nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, mükafatlar innovasiya və sahibkarlıq vasitəsilə iqlim dəyişikliyi ilə mübarizədə fərqlənən şəxslərə təqdim olunub.

Nazir Yasmin Fuad bu təşəbbüsün Şimali Afrika və Yaxın Şərq regionunda iqlim dəyişikliyinə qarşı həllər və layihələr təqdim etməyə çalışan gənc sahibkarlar və xüsusilə qadınlar üçün real fürsət olduğunu vurğulayıb. O, elmin və innovasiyanın yaşıl keçid və iqlim dəyişikliyinin təsirlərinə qarşı mübarizənin təməlini təşkil etdiyini deyərək, bu təşəbbüsün afrikalı gənclərin sahibkarlıq vasitəsilə yaşıl keçidə doğru irəliləmələrinə töhfə verəcəyini bildirib.

Misirli nazir əlavə edib ki, "Africa Grows Green" təşəbbüsü Şimali Afrika və Yaxın Şərq regionundakı sahibkarlar arasında əlaqə yaratmaq üçün platforma sayıla bilər. Qeyd edib ki, gənclərə bu platforma vasitəsilə daha aşağıkarbonlu və dayanıqlı gələcək naminə innovativ həllər təqdim etmək imkanı yaradılır. Eyni zamanda, bu platforma region daxilində ətraf mühitin qorunması və inkişafın dəstəklənməsi üçün investisiya imkanlarının artırılmasında faydalı ola bilər.

Ətraf mühit naziri təşəbbüs üzrə mükafatların dörd kateqoriyanı əhatə etdiyini vurğulayıb.

Mükafata cəlb edilən fəaliyyətlərdən biri iqlim dəyişikliyinin təsirlərinə uyğunlaşmaya və onların azaldılmasına yönəlmiş texnologiyalarla bağlıdır. Bu da öz növbəsində kənd təsərrüfatı, su resurslarının idarə olunması, enerji paylanması və saxlanması, ağıllı nəqliyyat və digər sahələri əhatə edir.

"She Goes Green" mükafatı isə qadınlar tərəfindən idarə olunan, yaşıl istehsal və istehlak sahələrində iş yerlərinin və bazarların yaradılmasının təşviqində rol oynayan startaplara verilib.

"Yaşıl Maliyyələşdirmə" mükafatına gəlincə, o, investisiya portfellərində "sıfır karbon izi" hədəflərinə çatmağı hədəfləyən banklar, investisiya layihələri və investorlar üçündür.

Mükafat alanlar arasında iqlim üzrə təhsil, tədqiqat və təlim sahələrində seçilən akademik müəssisələr də var. Sözügedən mükafat iqlim innovasiyaları sahəsində bacarıqların artırılmasını hədəfləyir.

Qeyd edək ki, "Africa Grows Green" təşəbbüsü iqlim dəyişikliyi ilə mübarizə məqsədilə sənaye sektorlarını, qadınlar tərəfindən idarə olunan kiçik və orta sahibkarlıq subyektlərini, yaşıl maliyyələşdirmə qurumlarını və tədqiqat mərkəzlərini ekoloji cəhətdən dost yanaşmalara sərmayə qoymağa təşviq edir. Bu təşəbbüs üzrə qaliblərin mükafatlandırılması, əvvəlki COP27 və COP28 konfranslarında da həyata keçirilib.

**AZƏRTAC**
**2024, 20 noyabr**